DÜNYA

# Aİ-nin Rusiyaya qarşı 'İsveçrə pendiri'nə bənzəyən sanksiya paketi

25 dəqiqə öncə




Rusiya prezidenti Vladimir Putin Brüsseldə Aİ-Rusiya sammitinin yekununa dair mətbuat konfransı zamanı reaksiya verərkən. 2014

Avropa İttifaqında (Aİ) bir çox diplomat hesab edirdi ki, Macarıstanın keçmiş baş naziri Viktor Orban mayda 16 illik hakimiyyətdən gedincə Rusiyaya qarşı sanksiyaların təsdiqlənməsi daha da asanlaşacaq. Orban blokda Kremlə ən yaxın lider sayılır, Avropa siyasətçiləri onun Rusiyaya tətbiq edilən məhdudiyyətləri yumşaltmağa çalışdığını bildirirdilər.

AzadlıqRadiosunun Avropa üzrə redaktoru **Rikard Yozvyak** yazır ki, Avropa Komissiyasının hazırladığı sanksiyalar paketi layihəsi iyunun əvvəlində Aİ paytaxtlarına göndəriləndə gözləntilər yüksək idi. Bu, Rusiya 2022-ci ilin fevralında Ukraynaya genişmiqyaslı hücuma başlayandan bəri sayca 21-ci paketdir.

Radio müxbirinin baxdığı ilkin layihədə gerçəkdən iddialı tədbirlər nəzərdə tutulmuşdu.

## Zəiflədilən və layihədən çıxarılan tədbirlər

Amma altı həftəyə yaxın vaxt keçməsinə baxmayaraq, paket hələ də tam razılaşdırılmayıb. Aİ-nin 27 üzvünün hamısı ona yekdil razılıq verməlidir.

Üstəlik, bütün əsas tədbirlər ya zəiflədilib, ya da tamamilə çıxarılıb. AzadlıqRadiosuna danışan Aİ diplomatları paketi məşhur dəlikli İsveçrə pendirinə istinadla "Emmental" adlandırırlar.

**İlkin təkliflərdə Rusiyadan balıq, xüsusilə də treska, pikşa və mintay idxalına qadağa yer alırdı.** Almaniya, Polşa və Portuqaliya daxil bir sıra ölkələr istisnalar tələb edib. Onlar Rusiyadan gətirilən balığın balıq çubuqları kimi məhsulların istehsalında istifadə olunduğunu bildiriblər. Nəticədə bu qadağa xeyli yumşaldılıb, sonda paketdən tamamilə çıxarılıb.

Yaxud Ukraynada döyüşmüş keçmiş Rusiya hərbçilərinə Şengen zonasına avtomatik giriş qadağası məsələsi. Xüsusilə Estoniya bu təşəbbüsü fəal şəkildə dəstəkləyirdi. Çünki 2025-ci ildə Rusiya vətəndaşlarına verilən turizm vizalarının sayı əvvəlki illə müqayisədə 10 faiz artmışdı. Vizaları əsasən Fransa, İtaliya və İspaniya rəsmiləşdirirdi.

Aralıq dənizi ölkələri turizmdən böyük gəlir götürür. Onlar növbəti yay mövsümü ərəfəsində bu sahəni məhdudlaşdırmağa meyl göstərmədilər. **Əvəzində belə bir öhdəlik götürüləcək ki, yekdillik olarsa, hərbçilər və keçmiş döyüşçülər üçün qısamüddətli Şengen vizalarına qadağa qoyulması məqsədilə müvafiq Məcəlləyə dəyişiklik edilə bilər.**



Fransanın Bretan sahillərində Rusiya neft tankeri

## Bəs neft?

Rusiyanın əsas ixrac markası olan "Urals" neftinə qiymət tavanı da çox müzakirə edilib. Yaxın Şərqdəki müharibə, son aylar Hörmüz boğazından neft və qaz daşınmasının ciddi məhdudlaşması bu məsələni daha da qəlizləşdirib.

Avropa Komissiyası qiymət tavanını altı ay müddətinə bir barel üçün 44.10 dollar həddində saxlamağı təklif etmişdi. Məqsəd iyulun 15-də limitin avtomatik olaraq 60 dollara qalxmasını, bunun da Rusiyanın hərbi gəlirlərini artırmasını önləmək idi. Sonradan bu müddət üç aya endirildi. Bu həftə isə Aİ səfirləri son tarixə az qalmış qiymət tavanını cəmi yeddi gün – iyulun 23-dək uzatmağa razılaşdılar.

Onlar iyulun 22-də yenidən toplaşaraq yekun razılığa gəlməyə çalışacaqlar. Amma məsələ Yunanıstanın başqa tələbi ilə çətinləşib. Afina 2027-ci il yanvarın 1-dən Aİ şirkətlərinin Rusiya mayeləşdirilmiş təbii qazını (LNG) Aİ-dən kənar ölkələrə daşımasını qadağan edən qərardan müddətsiz istisna istəyir. Bu qərar 2025-ci ilin oktyabrında qəbul edilib.

Avstriya da paketin qəbulunu ləngidən ölkələrdəndir. **Vyana tələb edir ki, Rusiyada "Raiffeisen Bank"ın müsadirə olunmuş pul və aktivlərinə görə təxminən 2.5 milyard avro təzminat ödənilsin.** Avstriya hökumətinin mövqeyinə görə, bu kompensasiya Rusiya məhkəməsinin "Rasperia" şirkətinin xeyrinə çıxardığı qərar ucbatından banka dəymiş nəhəng zərərin örtülməsinə yönəldilməlidir. Vyana bildirir ki, vəsaitin böyük hissəsi Ukraynanın bərpası fonduna köçürüləcək. Digər Avropa ölkələri hesab edir ki, belə bir

addım Moskvanı Rusiyada qalan digər Avropa şirkətlərini də hədəfə almağa təşviq edə bilər.

Bir çox üzv dövlət Aİ-nin Rusiyada fəaliyyətini davam etdirməyi seçmiş "Raiffeisen Bank"a yardım göstərməsindən narazıdır. Çünki digər Avropa hökumətləri öz şirkətlərini həmin bazarı tərk etməyə çağırmışdılar.

## Paketdə nə qalacaq?

R.Yozvyak yazır ki, yekun sanksiya paketinə Rusiyanın daha çox bankının və neft məhdudiyyətlərindən yayınmaq üçün istifadə olunduğu bildirilən "kölgə donanması"na aid gəmilərin əlavə ediləcəyi gözlənilir.

Həmçinin 250-dən çox Rusiya vətəndaşı ilə şirkətinin aktivləri dondurulacaq və onlara viza qadağası tətbiq olunacaq.

Siyahıya Rusiyanın keçmiş baş nazir müavini, hazırda Beynəlxalq Şahmat Federasiyasının prezidenti **Arkadi Dvorkoviç** və ölkənin idman naziri **Mixail Deqtyaryov** da daxildir.

Di gəl ki, bu siyahı da xeyli ixtisar olunub. Bolqarıstan ilkin variantda yer alan üç nəfərin – Rus Pravoslav Kilsəsinin rəhbəri **Patriarx Kirill**in, Rusiyanın ən böyük özəl neft şirkəti "LUKoil"un rəhbəri **Vahid Ələkbərov**un və rusiyalı milyarder **İskəndər Mahmudov**un sanksiyalara məruz qalmasına veto qoyub. Sonuncunun müəssisələri Sofiya metrosunu ehtiyat hissələri ilə təmin edir.


## Buna da bax:

'Şahed' dronları üçün komponentlər istehsal edən şirkətlərə sanksiyalar qoyuldu

OCCRP: Azərbaycan qeydiyyatlı onlarla şirkət Rusiyanın 'kölgə donanması' tankerlərini idarə edir

FIDE Rusiya Şahmat Federasiyasının üzvlüyünü dayandırıb


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur